# İmzalanacaq saziş Avropa İttifaqı ilə Azərbaycan əlaqələrini keyfiyyətcə yeni səviyyəyə yüksəldəcək



Dünən Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolai ilə görüşdü.

Azərbaycan ilə Avropa İttifaqı arasında uzun illərdir yaxşı tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyən Oqtay Əsədov qeyd etdi ki, bu səfər Avropa Parlamenti ilə ölkəmiz arasında münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək. Qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın inkişafı ikitərəfli əlaqələrdə mühüm rol oynayacaq.

Görüşdə Milli Məclis ilə Avropa Parlamenti arasında əməkdaşlığın perspektivləri müzakirə olundu. Bildirildi ki, Milli Məclis Avropa Parlamenti ilə əlaqələrin inkişafında maraqlıdır. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanacaq yeni saziş isə əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə yüksəldəcək. Hazırda yeni sazişin hazırlanması istiqamətində işlər gedir.

Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərə toxunan Norika Nikolai əlaqələrin yüksək templə inkişaf etdiyini bildirdi. Bu gün dünyada mürəkkəb proseslərin getdiyini söyləyən Norika Nikolai qeyd etdi ki, hər yerdə münaqişə, ziddiyətin olduğu bir zamanda multikultural dəyərlərə böyük önəm verən, mədəniyyətlər körpüsü hesab olunan Azərbaycanda sülh, əmin-amanlıq mövcuddur.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***Səbinə MƏMMƏDOVA,***
***Fərman BAĞIROV(foto),***
***“Azərbaycan”***

Azərbaycan.- 2018.-28 aprel.- S.3.